# Nuh




BU, NUHUN VƏ ONUN AİLƏSİNİN HEKAYƏSİDİR.
YER ÜZÜNDƏ BƏŞƏRİYYƏTİN SAYI ARTDIQCA, ADAMLAR ALLAHDAN ÜZ DÖNDƏRİRDİLƏR.
ALLAH BUNU GÖRÜB KƏDƏRLƏNİRDİ.
LAKİN ALLAH NUHU DA GÖRÜRDÜ...
NUHUN ÜÇ OĞLU VAR İDİ: SAM, HAM VƏ YAFƏS.
TƏLƏSİN, QARDAŞLAR. BİZƏ LAZIM OLANI TAPAQ VƏ EVƏ QAYIDAQ.
BU QƏDƏR ƏRZAĞI ALMAĞI ATA TAPŞIRIB? BELƏ UZUN SİYAHI HƏLƏ GÖRMƏMİŞDİM!
O, HƏR ŞEYİ HAZIR OLMAQ İSTƏYİR. İŞİNİ DEMƏK OLAR Kİ, BİTİRİB!
YARADILIŞ 6:9


ÜZR İSTƏYİRƏM, CƏNABLAR!
ƏN YAXŞI KİŞİ VƏ QADIN ÇEŞİDİ MƏNDƏDİR, NƏ LAZIMDIRSA EDƏCƏKLƏR...
BİZ QUL ALMAQ ÜÇÜN GƏLMƏMİŞİK.
ONLAR TƏZƏ GƏTİRİLİB! ATAMAN ONLARI İNDİCƏ TUTUB.
LAZIM DEYİL!
EH! NUHUN OĞULLARI, SİZƏ QUL LAZIM DEYİL?
HƏ, ATALARI ÜÇÜN TİKDİYİ SIĞINACAĞA BAXIN!
HƏ, NUHA QUL ALMAQ LAZIM DEYİL. QUL ƏVƏZİNƏ OĞULLARINI İŞLƏDİR!
ONLARA FİKİR VERMƏ.
BAŞA DÜŞMÜRLƏR, BUNA GÖRƏ DƏ GÜLÜRLƏR.
SAM, MƏN DƏ BAŞA DÜŞMÜRƏM!
YAFƏS, BİZ DƏMİRÇİDƏN MAL ALINCA SƏN HEYVANLARIN YANINDA QAL.
YAXŞI.
GÖRÜNÜR, XƏRCLƏMƏYƏ PULUN VAR.
YOXDUR, XANIM.
YƏNİ, VAR, AMMA...
MƏN EVLİYƏM, XANIM.
YANIMA GƏLƏN KİŞİLƏRİN ƏKSƏRİYYƏTİ
MƏNƏ İNAN. ATLARLA SÜRÜNÜ BURADA QOYUB MƏNİMLƏ GƏL.
YOX, QOYA BİLMƏRƏM. BUNLAR BİZƏ LAZIMDIR.
LAP YAXŞI, ÖZÜN BİL...


...İNƏKLƏRİN İKİSİNİ DƏ? ZARAFAT EDİRSƏN?
HƏLƏ ÇOX ƏRZAQ ALMALIYIQ!
HEÇ ŞÜBHƏNİZ OLMASIN. BÜTÜN KƏNDDƏ BUNDAN YAXŞI QIYMƏT TAPA BİLMƏYƏCƏYİK. USTA DA YAXŞIDIR.
QULAQ AS, ATANIN SAXLADIĞI HEYVANLAR ƏN YAXŞIDIR.
MƏNİM DÖRD ARVADIM, SƏKKIZ UŞAĞIM VAR. ÜÇÜ ÖTƏN İL DÜNYAYA GƏLİB.
OOO! NƏ?!!!
YAFƏS!!!
O HARADADIR?
YAFƏS!!!
YAFƏS, SALAMATSAN?
ATLAR VƏ SÜRÜ!
NƏ BAŞ VERDİ?
QADIN... O, BURADA İDİ, ANCAQ MƏN ONUNLA GETMƏDİM.
SONRA BAŞIMDAN VURDULAR. ARXADAN. SONRA...
ONLAR GETDİLƏR, HEÇ KİMİ GÖRMÜRƏM.
UZAĞA GEDƏ BİLMƏZLƏR. ONLARIN ARDINCA GEDƏK?
SİLAHIMIZ OLSAYDI, GEDƏRDİK. HEYF, SİLAHLAR...
...ATIN ÜSTÜNDƏ QALDI.
SEVİN Kİ, SAĞSAN. ONLAR SƏNİ ÖLDÜRƏ DƏ BİLƏRDİLƏR.
EVƏ ƏLİBOŞ QAYITMALI OLACAĞIQ.
HEÇ OLMAZSA, EVƏ BOŞ MƏDƏ İLƏ QAYITMAYAQ.
CİBİMDƏ BİR AZ PUL QALIB.
YARADILIŞ 6:11


YEMƏK-İÇMƏK, YOXSA ANCAQ İÇKİ?
YEMƏYİMİZ...
...ATLARIN ÜSTÜNDƏ GETDİ, TƏƏSSÜF Kİ.
YEMƏK-İÇMƏK OLSUN.
BAĞIŞLAYIN...
YASƏF, BƏSDIR. BU SƏNİN TƏQSİRİN DEYİL.
HAMI BURAYA BAXSIN! NUHUN OĞULLARI!
ƏN BÖYÜK GƏMİ TİKƏNLƏR BURADADIRLAR!
QURU TORPAQDA GƏMİNİ TİKİB QURTARANDAN SONRA ONLAR MEMARLIQDA NAİLİYYƏT NAMİNƏ BEŞ YÜZ AT ÜÇÜN TÖVLƏ TİKƏCƏKLƏR...
...GÖLÜN DİBİNDƏ!
SONRA DA DÜNYANIN ƏN HÜNDÜR MÜŞAHİDƏ QÜLLƏSİNİ TİKƏCƏKLƏR...
...MAĞARADA!
YAXŞI Kİ, SİLAHIMIZ ATLARIN ÜSTÜNDƏ GETDİ.
NƏ PİS!
BİZİMLƏ BİRGƏ OLMAĞIN NƏ QƏDƏR YAXŞI OLDUĞUNU BİLSƏYDİLƏR, BIZƏ GÜLMƏZDİLƏR. HAMISI SAĞ QALARDI.
KAŞ ADAMLAR ALLAHIN GÜNAHA QƏZƏBİ HAQQINDA BİLƏRDİLƏR,
ONDA GÜNAHI SEÇMƏZ DİLƏR.
ATA ONLARA NƏ QƏDƏR DEYİB? HEÇ ATAYA DA QULAQ ASMADILAR.
ATA İNDİ NƏ EDƏRDİ?
EY! SİZ İKİNİZ!
NUHUN OĞULLARI, BAŞINIZA İŞ AÇMAQ İSTƏYİRSİNİZ?
XEYR. SADƏCƏ, SİZƏ HƏDİYYƏ VERMƏK İSTƏYİRİK.


HƏDİYYƏ?
BƏLİ.
DƏRRAKƏ VƏ BİLİK HƏDİYYƏSİ!
NƏ?
GET, ONLARA DANIŞ...
HAM, BUNUN MƏQSƏDİ NƏDİR?
ONLARA DEMƏK.
ATA ONLARA ARTIQ DEYİB, ONLAR DA ATAMIZI LAĞA QOYUBLAR. ONLAR MƏNİ DƏ LAĞA QOYACAQLAR.
DANIŞ, SAM.
ATA DA ONLARA DANIŞARDI.
BƏLKƏ ONLAR BU DƏFƏ EŞİDƏRLƏR!
HEKAYƏYƏ QULAQ ASIN.
ATAMIN HEKAYƏSİDİR.
HEKAYƏYƏ DİQQƏT EDİN. BU HEKAYƏ SİZƏ DƏ AİDDİR.
ÖZÜNÜZ BİLİRSİNİZ Kİ, ULU ATA-ANAMIZIN GÜNLƏRİNDƏN BAŞLAYARAQ İNSANIN ŞƏR İŞLƏRİ XEYLİ ARTDI.
ONLAR ALLAHIN BİRCƏ QAYDASINI POZARAQ DÜNYAYA GÜNAH GƏTİRDİLƏR.
HƏMİN GÜNDƏN BAŞLAYARAQ, HƏR BİRİMİZ ALLAHDAN ÜZ DÖNDƏRDİK.


"İNDİ İSƏ HƏR BİRİMİZ SEÇİM ETMƏLİYİK: BİZ ALLAHIN YOLU İLƏ,
YOXSA ÖZ YOLUMUZ-LA GEDƏCƏYİK?
ADƏMLƏ HƏVVANIN OĞULLARI, ONLARIN SEÇİM-LƏRİ BARƏDƏ FİKİRLƏŞİN.
HABİL ALLAHA XİDMƏT EDİRDİ, DÜZGÜN VƏ HƏLİM ADAM İDİ.
QABİL İSƏ ÖZÜNƏ XİDMƏT EDİRDİ, QISQANC VƏ TƏKƏBBÜRLÜ İDİ.
HƏR BİRİMİZ BU SEÇİMİ ETMƏLİYİK. ALLAH SİZİN SEÇİMİNİZİ GÖRÜR! ALLAH SİZDƏKİ ŞƏRİ GÖRÜR!
ADAMLAR ÜZ DÖNDƏRƏNDƏ ALLAH ATA KİMİ KƏDƏRLƏNİR.
BUNA GÖRƏ DƏ RƏBB DEDİ: "YARATDIĞIM İNSAN-LARI YER ÜZÜNDƏN SİLƏCƏYƏM, ÇÜNKİ ONLARI YARATMAĞIMA PEŞMAN OLMUŞAM".
NUHUN OĞLU, ALLAHIN FİKİRLƏRİNİ HARADAN BİLİR-SƏN?
ÇÜNKİ DEDİYİN KİMİ, MƏN "NUHUN OĞLU"YAM.
SİZ ATAM NUHU TANIYIRSINIZ.
BİLİRSİNİZ Kİ, ATAM DÜZGÜN, HÖRMƏTCİL ADAMDIR, ALLAHDAN DA QORXUR.
NUHU SALEH VƏ QÜSURSUZ ADAM KİMİ TANIYIRSINIZ.
KAMİL OLMASA DA, YARADANA ÜRƏKDƏN XİDMƏT EDƏNDİR.
ALLAH DA NUHU TANIYIRDI.
VƏ ALLAH ATAMA SÖZÜNÜ DEDİ.
NUH, İNSANLARI YER ÜZÜNDƏN SİLƏCƏYƏM, ÇÜNKİ ONLARA GÖRƏ DÜNYA ZORAKILIQLA DOLUB.
ONLARI YER ÜZÜ İLƏ BİRGƏ MƏHV EDƏCƏYƏM.
BUNA GÖRƏ DƏ, QOFER AĞACINDAN GƏMİ DÜZƏLT. ONUN İÇİNDƏ OTAQLAR DÜZƏLT, ÜSTÜNƏ İÇƏRİDƏN VƏ BAYIRDAN QATRAN VUR.
GƏMİNİ BELƏ DÜZƏLT...
YARADILIŞ 6:13




YARADILIŞ 6:9


BAŞLADI!
YAXŞI BAŞLADI!
YAXŞISI İŞƏ QAYIDIM.
GÜNLƏR, AYLAR KEÇDİ.
AYLARDAN SONRA İLLƏR KEÇDİ.


NUH! NUH! BİLİRSƏN NƏ?
BU LAYİHƏDƏ SƏNƏ ÇOXLU KÖMƏKÇİ LAZIMDIR.
ƏZİZİM, SƏNƏ DEDİM Kİ, BİZ MUZDLA İŞÇİ GÖTÜRMƏYƏCƏYİK!
YOX, MƏN BAŞQA SÖZ DEYİRƏM!
ONDA SƏN NƏ...
AH!
OH!!!
XIRT
DEMƏK İSTƏYİRSƏN...
HƏ, NUH!
HƏ!!!
QARDAŞLARIMLA MƏN BU DÜNYAYA GƏLDİK.
DİL AÇANDA ATA ÖHDƏLİKLƏRİNİ DƏ ÖYRƏNDİK.
ÇOX ŞEYİ BAŞA DÜŞMÜRDÜK.
AYAQ AÇANDA ONA KÖMƏK ETMƏYƏ BAŞLADIQ.
BİZ YALNIZ BUNU BİLİRDİK: ALLAH ATAMIZA AİLƏMİZİN XİLASI ÜÇÜN GƏMİ TİKMƏYİ TAPŞIRIBSA, BİZ ONA KÖMƏK ETMƏK ÜÇÜN ƏLİMİZDƏN GƏLƏNİ ETMƏLİYİK.






YARADILIŞ 6:18




YARADILIŞ 6:5


ATA, BU GÜN SƏNƏ NƏ KÖMƏK ETMƏLİYİK?
DANQ
HA! HA HAHA HA!!!
KÖMƏK? KÖMƏK LAZIM DEYİL! DAHA LAZIM DEYİL!
LAZIM DEYİL?
İŞ BİTDİ!
İŞ BİTDİ!
ALLAH NUHA GƏMİNİ TİKMƏK VƏ HƏR CÜR ƏRZAQ TƏDARÜKÜ GÖRMƏK TAPŞIRDIĞI VAXTDAN YÜZ İYİRMİ İL KEÇDİ.




YARADILIŞ 6:19-22


İÇƏRİ KEÇİN, AY QUZULAR!
QARDAŞLAR, ÖZ QUZULARIMIZ GƏMİYƏ GİRMƏK İSTƏMİRLƏRSƏ, BÜTÜN HEYVANLARI NECƏ YIĞACAĞIQ?
QUZULARI İÇƏRİ SALMAQ HƏLƏ HEÇ VAXT BELƏ ÇƏTİN OLMAYIB.
BUNA BAX, YEDDİSİ ÖZÜ İÇƏRİ KEÇİR!
BİZ ONLARI QOVMURUQ. SANKİ ONLARI KİMSƏ YÖNƏLDİR.
HƏLƏ BU SON DEYİL!
HEYVANLAR ÜÇÜN BELƏ HƏRƏKƏT ETMƏK TƏBİİ DEYİL.
ELƏ MƏN DƏ BUNU DEYİRƏM!


YARADILIŞ 6:19-20



BU GÜN DƏ HEYVANLARA TAMAŞA ETMƏK ÜÇÜN ADAMLAR YIĞIŞMIŞDI. ÖTƏN ALTI GÜNDƏ OLDUĞU KİMİ.
ONLAR NECƏ ŞÜBHƏ EDƏ BİLƏRLƏR?
OĞUL, ONLAR ÖZ SEÇİMİNİ EDİBLƏR.
ONLAR İNANMAMAĞI ƏVVƏLDƏN SEÇİBLƏR. İNDİ DƏ İNAMIRLAR.
MƏN BUNU BAŞA DÜŞMÜRƏM.
BU HEYVANLARI BURAYA ALLAH ÖZÜ GƏTİRİR.
ALLAH ÇOX QÜDRƏTLİDİR. O, DÜNYANIN YARADANIDIR.
NƏ ÜÇÜN O, BİZİM ÜÇÜN GƏMİNİ DƏ TİKMƏDİ?
MƏN BİR ÇOX İL ƏRZİNDƏ BU BARƏDƏ FİKİRLƏŞİRDİM, OĞLUM.
HEYVANLARA BAX. ALLAH ONLARI ÖZ ƏLİ İLƏ GƏTİRİR.
BİZİ İSƏ ALLAH MƏCBUR ETMİR. O, MƏNƏ GƏMİNİ TİKMƏYİ VƏ AİLƏMİ GƏMİYƏ MİNDİRMƏYİ TAPŞIRDI.
O, MƏNƏ GÖSTƏRİŞLƏR VERDİ VƏ SEÇİM QARŞISINDA SƏRBƏST BURAXDI.
HAMI YATMAĞA!
SABAH İLLƏRLƏ GÖZLƏDİYİMİZ HƏMİN GÜNDÜR!
BİZ İSTİRAHƏT ETMƏLİYİK!
YƏNİ ALLAH ATAMIZI ƏVVƏLCƏDƏN TANIYIB SEÇDİ?
MƏN BİLİMİRƏM. TƏKCƏ BUNU BİLİRƏM Kİ, BİZ ÖZ SEÇİMİMİZİ ETMİŞİK.
BU GÜN DƏQİQ BİLİRƏM Kİ, MƏN DÜZGÜN SEÇİM ETMİŞƏM.
HƏR ŞEY ALLAHIN DEDİYİ KİMİ OLDU. HƏYAT NƏFƏSİNİ ALAN İKİ HEYVAN GƏLDİ...



YEDDİNCİ GÜN...
HEYVANLARIN AXINI KƏSİLDİ.
GƏMİDƏ NEÇƏ MİN HEYVAN VAR?
İYİRMİYƏ ÇATANDA SAYMAQDA DAYANDIM.
İYİRMI MIN?
XEYR. SADƏCƏ, İYİRMİ. BAŞA DÜŞDÜM Kİ, BU, TƏSƏV-VÜR ETDİYİMDƏN DƏ ÇOXDUR.
ONLARA BAX.
HƏLƏ DƏ İNANMIRLAR.
HƏMİN GÜN BU GÜNDÜR!
QAPI HƏLƏ DƏ AÇIQDIR!
AXMAQLAR! ÖZÜNÜZƏ YAZIĞINIZ GƏLSİN. O ÜFUNƏTDƏ NECƏ YAŞAYACAQSINIZ?
ORADA BEŞ DƏQİQƏ QALMAĞIM BƏSDİR. TƏKCƏ PEYİNİN İYİNƏ GÖRƏ QADINLAR BİR HƏFTƏ MƏNƏ YAXIN GƏLMƏZ!
HEÇ OLMASA, BƏHANƏN OLACAQ!
ƏLBƏTTƏ. ÜFUNƏTDƏN YUYUN-MAĞIN ÜÇÜN BİR AZDAN GÖYDƏN SULAR TÖKÜ-LƏCƏK!
BU NƏDİR? SU TÖKÜLÜR?
SU TÖKÜLÜR!
BAŞLADI!
ONLAR LAĞA QOYURDULAR. İNDİ İSƏ GÜNAHIN ÜFUNƏTİ YER ÜZÜNDƏN YUYULACAQ.
DAŞQININ SULARI GƏLİR.
İÇƏRİ KEÇİN! İÇƏRİ KEÇİN!
YARADILIŞ 7:16
ALLAH ONLARIN ARDINCA QAPINI BAĞLADI.


NƏ? OLA BİLMƏZ!
YOX... YOX... YOX!!!
NUH BUNU DEYİRDİ! BİZ ONUN SALEH, DÜZGÜN ADAM OLDUĞUNU BİLİRDİK!
BƏS, BU MƏSƏLƏDƏ BİZ NƏ ÜÇÜN ONA İNANMADIQ?
HÜNDÜR YERƏ KEÇMƏLİYİK.
NƏYƏ GƏRƏKDİR? HƏR ŞEY NUHUN DEDİYİ KİMİ BAŞ VERİR.
MƏNTİQƏ GÖRƏ, SONRA DA ONUN DEDİYİ KİMİ OLACAQ.
YƏNİ HƏR BİR GÜNAHKAR MƏHV OLACAQ.
SİZCƏ, ATAMIZ KİMİ ALLAHIN SƏSİNİ EŞİTSƏYDİLƏR ONLAR DA GƏLƏRDİLƏR?
ONLAR ATAMIZIN SÖZLƏRİNDƏ ALLAHIN ÇAĞIRIŞINI EŞİTMİŞDİLƏR, ATAMIZIN HƏYATINDA ALLAHI GÖRMÜŞDÜLƏR.
BUNA BAXA BİLMİRƏM.
BU SƏS... YAĞIŞIN VƏ GÖYÜN GURULTU SƏSİ.
BAYIRDA HAVA NECƏDİR?
GÖYDƏN SU TÖKÜLÜR, YERDƏ DƏ SUYUN SƏVİYYƏSİ QALXIR.
DƏHŞƏTDİR.
VAY!


BİZ.
SAKİT!
SƏSİNİ KƏS!
BU QAPI BAĞLANANA QƏDƏR BİZ SEÇİM EDƏ BİLƏRDİK...
DEDİM SƏSİNİ KƏS!
UX!!!


YAFƏS, NEÇƏ GÜN KEÇDİ?
İYİRMİ İKİ GÜN.
ÜÇ GÜN ƏVVƏL MƏN YÜKSƏK DAĞIN BAŞINDA BİTƏN AĞACIN BAŞINI GÖRMÜŞDÜM.
İNDİ İSƏ SUDAN BAŞQA HEÇ NƏ GÖRMƏK OLMUR.
TƏSƏVVÜR EDİRSİNİZ BU GƏMİDƏN ÇIXANDAN SONRA BİZƏ NECƏ ÇƏTİN OLACAQ?
ƏVVƏLKİNDƏN ÇƏTİN OLMAYACAQ. ƏN AZI, GƏMİ TİKMƏLİ OLMAYACAĞIQ.
QONŞU QƏBİLƏLƏRDƏN VƏ KƏNDLƏRDƏN HÜCUM TƏHLÜKƏSİ DƏ OLMAYACAQ.
MƏN HƏLƏ DƏ BU HEYVANLARIN SAKİTLİYİNƏ TƏƏCCÜBLƏNİRƏM. ASLAN QOYUNLARIN ARASINDA YATIR, HAMISI DA...
DAYAN, EŞİDİRSƏN?
HEÇ NƏ EŞİTMİRƏM.
SAKİTLİYİ EŞİDİRSƏN?
QIRX GÜNDƏN SONRA YAĞIŞ DAYANDI.



YÜZ ƏLLİ GÜNDƏN SONRA İSƏ...
OLA BİLSİN, BU GƏMİDƏN HƏLƏ BİR NEÇƏ İL ÇIXMAYACAĞIQ.
ELƏ BUNA GÖRƏ ALLAH BU QƏDƏR HEYVANI GƏMİYƏ GƏTİRDİ.
YEMƏK ÜÇÜN?
BİLİRƏM, YAFƏS. ÇOXDANDIR GÖZÜN O RƏNGLİ QUŞLARA DÜŞÜB. RUHDAN DÜŞMƏYƏ DƏYMƏZ.
MƏN BU BARƏDƏ FİKİRLƏŞİRƏM.
HEYVANLARI YEMƏK BARƏDƏ DANIŞMIRAM. GƏMİDƏ GÖZLƏ-DİYİMİZDƏN ÇOX QALA BİLƏRİK.
BİZ ARTIQ GÖZLƏDİYİMİZDƏN ÇOX QALMIŞIQ.
BAŞQA TƏRƏFDƏN, ALLAH BİZİ GƏMİDƏ YAŞAMAQ ÜÇÜN XİLAS ETMƏDİ Kİ!
ƏRZAQ EHTİYATIMIZ BİTMƏYƏ-CƏK.
GƏMİDƏKİ GÜN-LƏRİMİZİN SAYINI BİLİB EHTİYAT ƏRZAQ GÖTÜRMƏMİŞİK. GÜNLƏRİN SAYINI ALLAH BİLİR.
BU GƏMİDƏ ÖVLAD BÖYÜTMƏK İSTƏMƏZDİM.
ELƏ UZUN MÜDDƏT OLA BİLƏR?
ARVADIM DA İSTƏ-MƏZDİ.
ÖMÜR BOYU BU GƏMİNİ TİKMİŞİK.
TƏSƏVVÜR EDİRSƏN Kİ, ÖMÜR BOYU ELƏ BU GƏMİDƏ YAŞA-YACAQSAN?
NƏ...
AHHH!
OOHHH!!!



NUH QARĞANI GÖNDƏRƏNDƏN YÜZ GÜN SONRA GƏMİ YERDƏ DAYANDI.
ATA, BUNU NƏ ÜÇÜN ETDİN?
QARĞA HÜNDÜRLÜKDƏN QURU TORPAĞI GÖRƏ BİLƏR. QARĞA QAYITSA, BİLƏCƏYİK Kİ, QURU TORPAQ YOXDUR.
XEYR, ATA. SORU-ŞURAM, SƏN NİYƏ BİR QUŞU BURAXDIN? BİZDƏ BİR CÜT QARĞA VAR. BUNA BİR ŞEY OLSA...
HƏ, BAŞA DÜŞDÜM.
NÖVBƏTİ DƏFƏ MƏN GÖYƏRÇİNİ BURAXARAM. GÖYƏRÇİNDƏN YEDDİ DƏNƏDİR.
YER ÜZÜNDƏ SU QURUYANA QƏDƏR QARĞA HƏR TƏRƏFİ DOLAŞDI.
BİR HƏFTƏ SONRA...
ATA, NƏYƏ LAZIMDIR?
ÖTƏN HƏFTƏ QARĞANI BURAXDIN, HEÇ NƏ AYDIN OLMADI.
HƏ, AMMA BAYIRDA NƏ BAŞ VERDİYİNİ BİLMƏK MƏNƏ MARAQLIDIR. QAPINI AÇMAĞA CƏSARƏT ETMİRƏM.
YARADILIŞ 8:6-9




YARADILIŞ 8:10-12


ALLAH GƏMİNİN GİRİŞİNİ BAĞLAYAN GÜNDƏN 376 GÜN KEÇİB.
OĞULLAR, MƏNCƏ, VAXT GƏLDİ.
TORPAĞIN BİZİ QƏBUL ETMƏYƏ HAZIR OLDUĞUNU BU GÜN BİLƏCƏYİK.
BİLİRƏM Kİ, MƏN HAZIRAM!
AH, NUH!
BUNA BAX!
...TORPAĞIN ÜZÜ QURU İDİ.
SONRA ALLAH DEDİ:
SƏN ÖZ ARVADIN, OĞULLARIN VƏ GƏLİNLƏRİNLƏ BİRGƏ GƏMİDƏN ÇIX.
YARADILIŞ 8:14-15




YARADILIŞ 8:17-19






YARADILIŞ 8:20




YARADILIŞ 9:1-7


BULUDLARIN ARASINDA GÖY QURSAĞINI YERLƏŞDİRDİM. YER ÜZÜ İLƏ BAĞLADIĞIM ƏHDİN ƏLAMƏTİ OLACAQ.
MƏN YER ÜZÜNƏ BULUD GƏTİRDİYİM ZAMAN BULUDDA GÖY QURŞAĞI GÖRÜNƏCƏK. ONDA MƏN SİZİNLƏ VƏ BÜTÜN CANLI MƏXLUQLARLA BAĞLADIĞIM ƏHDI YADA SALACAĞAM.
SULAR BİR DAHA DAŞQINA ÇEVRİLİB BÜTÜN CANLILARI MƏHV ETMƏYƏCƏK.
BULUDDA GÖY QURŞAĞI OLACAQ. MƏN ALLAH ONU GÖRÜB YER ÜZÜNDƏ YAŞAYAN BÜTÜN CANLI MƏXLUQLARLA BAĞLADIĞIM ƏBƏDİ ƏHDI YADA SALACAĞAM.


NUH VƏ ONUN AİLƏSİ İŞƏ BAŞLADILAR.
TORPAĞI BECƏRDİLƏR.
EVLƏR TİKDİLƏR.
HEYVAN OVLAYDILAR.
YENİ HƏYATLARINI QURDULAR.
BİR-İKİ GÜNƏ TİKİNTİNİ BİTİRMƏK NECƏ DƏ XOŞDUR, ELƏ DEYİLMİ, QARDAŞLAR?
ON BEŞ METRLIK HÜNDÜRLÜYƏ QALXMADAN TİKİNTİDƏ İŞLƏMƏK NECƏ DƏ XOŞDUR!
GƏMİ BARƏDƏ FİKİRLƏŞİRSİNİZSƏ, ONDA BİLİN Kİ, BU EVİ DƏ İNDİ EYNİ SƏBƏBLƏ – ÖZÜMÜZÜ SUDAN QORUMAQ ÜÇÜN TİKİRİK.
SONRA NUH BİR ÜZÜM BAĞI SALDI.
O, ŞƏRAB İÇİB SƏRXOŞ OLDU.
MMM. YAXŞIDIR. ŞİRİNDİR.
YARADILIŞ 9:20-21


ATA?
ANAM SƏNDƏN NİGARANDIR.
EH, ATA!
O QUŞLARIN UZAĞA GET-MƏYƏCƏYİNƏ ÜMİD EDİRDİM.
ƏTLİ QUŞLARA OXŞAYIRDI. ANCAQ BAŞQA HEYVANLARLA GETDİLƏR.
HAM, NƏ OLUB?
ATADAN SORUŞ.
SALDIĞI ÜZÜM BAĞI BAR VERDİ. İNDİ DƏ ATAMIZ ONU İÇİB SƏRX-OŞDUR!
ÖZ ÇADIRINDA ANADANGƏLMƏ ÇILPAQ UZANIB.
GƏLİN ÖZÜNÜZ BAXIN!
YARADILIŞ 9:22


QARDAŞLAR, BU FİKİR AĞLIMDAN ÇIXMIR. ADƏM İLƏ HƏVVA GÜNAH EDƏNDƏN SONRA ÇILPAQ OLDUQLARINI DƏRK ETDİLƏR.
BƏS ATA... ÖZ ZAMANININ ƏN SALEH ADAMI İDİ!
ALLAHI KƏDƏR-LƏNDİRƏN ŞƏR DÜNYA-SINDAN BƏŞƏR İRQİNİ XİLAS ETMƏK ÜÇÜN YALNIZ O SEÇİLMİŞDİ.
ÇOX GÜNAHKAR ÖLDÜ, AMMA GÜNAH YOX OLMADI.
BİZ YAŞAYIRIQ.
YAFƏS, ONA BAXMA.
ONUN EYBİNƏ BAXMAMALI-YIQ.
NƏ? NƏ BAŞ VERDİ?
ŞEMİN ÖRTÜYÜ NƏ ÜÇÜN MƏNİM ÜSTÜMDƏ-DİR?
NUH, SƏN SƏRXOŞ OLDUN, BURADA ÇILĞAQ YATDIN.
OĞULLARIN SƏNİ GÖRƏ BİLƏRDİ. HAM SƏNİ GÖRDÜ VƏ NİFRƏTLƏ ÇIXIB GETDİ. DİGƏR İKİ OĞLUN İSƏ GƏLİB ÜSTÜNÜ ÖRTDÜLƏR.
HAM? HAM? ÜSTÜMÜ ÖRTMƏDİYİNƏ GÖRƏ LƏNƏTLİ OLSUN!
ALLAH MƏNƏ KÖMƏK EDƏN SAM VƏ YAFƏSƏ XEYİR-DUA VERSİN.
HAM QULLARIN QULU OLSUN! DİGƏR İKİ OĞLUMU İSƏ ALLAH YÜKSƏLT-SİN!
NUH, HAM SƏNİN ƏLİNƏ ŞƏRAB VERMƏDİ.
HAM SƏNİ SƏRXOŞ ETMƏDİ. HAM SƏNİ ÇILPAQ ETMƏDİ.
KEÇDİYİMİZ ÇƏTİNLİKLƏRDƏN SONRA OĞLUMLA MƏN SƏHV SEÇİM-LƏR ETDİK!
YARADILIŞ 9:23-27


NUHUN AİLƏSİ BÖYÜDÜ, OĞULLARININ ÖVLADLARI OLDU.
ATA!
BU OĞLANDIR! ONUN ADINI ELAM QOYURUQ.
ARVADIM YAXŞIDIR. QADINLAR ONA KÖMƏK EDİRLƏR.
İSTƏYİRDİM BİRİNCİ NƏVƏNİ GÖRƏSƏN!
ELAM.
ŞƏR NƏSİL MƏHV OLDU, LAKİN BİZDƏ OLAN ŞƏR YOX OLMADI.
ALLAH İLƏ ƏHDİMİZ VAR Kİ, O, BİR DAHA YER ÜZÜNÜ SU DAŞQINI İLƏ TƏMİZLƏMƏYƏCƏK.
GÖRƏSƏN, GƏLƏCƏK NƏSİLLƏRİ GÜNAHDAN TƏMİZLƏMƏK ÜÇÜN ALLAH HANSI ƏHDİ BAĞLAYACAQ?
SU DAŞQININDAN SONRA BU AİLƏLƏRDƏN DÜNYANIN MİLLƏTLƏRİ YARANDI VƏ YER ÜZÜNƏ YAYILDI.